# ...bir də belə tanıyaq!

Ətayə Əliyeva



**Gələcək həyat yoldaşı onu sevdiyi üçün nişanlısından ayrıldı, bətnindəki körpəni tələf etdirmək istədi, kinoda əsasən ana rollarının mahir ifaçısı kimi tanındı, teatrın, səhnənin nisgili ilə həyatdan köçdü... Söhbət "Onu bağışlamaq olarmı?" (leytenant Qarayeva), "Bizim küçə" (Bəyim xala), "Dağlarda döyüş" (ana), "Telefonçu qız" (Simuzər), "Uşaqlığın son gecəsi" (Mənsurə) filmlərindəki obrazları ilə tamaşaçıların qəlbində taxt quran, Azərbaycan qadınının nəcib, mehriban, xanım-xatın, zəhmətkeş, qayğıkeş xüsusiyyətlərini yaradıcılığına yansıdan unudulmaz teatr və kino aktrisası Ətayə Əliyevadan gedir...**

Azərbaycanın Əməkdar artisti Ətayə Əliyeva Aşqabadda (Türkmənistan) dünyaya göz açıb. Atası Ağaqulam İranın Marağa şəhərində tacir ailəsində doğulub. Anası Humay xanım isə savadlı qadın olub, fars və rus dillərini mükəmməl bilib. 6 uşaqlı ailənin böyük övladı olan Ətayə xanımın sənətə həvəsi atasının onu kiçik yaşlarında teatra aparması ilə yaranıb. Sonralar Bakı Teatr Texnikumunda ixtisas təhsili alan aktrisa birinci kursda M.Füzuli adına Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət edilib. Qısa müddət sonra isə teatrın bir qrup aktyoru ilə birlikdə İrəvandakı Azərbaycan teatrına gedib və on il orada işləyib.

Aktrisa ailə həyatında da sənətə sadiq qalıb, həyat yoldaşı tanınmış teatr aktyoru Həsənağa Mirzəyev olub. Deyilənə görə, Həsənağa Mirzəyev Ətayə xanımı sevdiyi ərəfədə nişanlı olub. Lakin çütlüyün arasında yaşanan böyük sevgi buna əngəl ola bilməyib. Ailənin yeganə övladı olan Həsənağa Mirzəyev valideynlərinin narazılığına baxmayaraq, Ətayə xanımla ailə qurub. Onların bu izdivacdan iki oğlu, bir qızı dünyaya gəlib. Ramiz Həsənoğlu və Rauf Mirzəyev valideynlərinin sənət yolunu davam etdirərək biri rejissor, digəri isə aktyor kimi Azərbaycan mədəniyyətinə öz töhfələrini veriblər.

Məlahətli səsi, nurlu siması ilə dəyişik xarakterli qadın obrazları yaradan Ətayə xanıma "Onu bağışlamaq olarmı?" filmindəki Sara xala rolu daha çox uğur gətirib. Bu filmdən sonra kim onu görürdü "mənəm, baaşşına dönüm" deyirdi. "Uşaqlığın son gecəsi" filmindəki Mənsurə obrazında isə sanki özünü oynayıb. Oğlu Ramiz müəllim deyir ki, anamın oynadığı rollar içərisində ona ən yaxın olan həmin obraz idi: "O filmə baxanda gözlərim dolur. Eynilə anamın intanasiyası, hərəkətləri... O həyatda necə idisə, "Mənsurə" obrazında da elə idi. Sanki anam evindən çıxıb filmə getmişdi". Çox fantastik yaddaşa sahib olan Ətayə xanım oynadığı bütün rolları əzbər bilirdi. O, öz həyatı ilə bağlı yazdığı xatirələr kitabında belə bir hadisəni qeyd edib: "Bir dəfə Bakının Suraxanı kəndində "Solğun çiçəklər" tamaşasını göstərməliydik. Mustafa Mərdanov Əbdül əmini oynayırdı. Mənə də dedilər ki, Sara rolunu oynayan aktrisa gəlməyib, sən əvəz edəcəksən. Mən də Gəncə teatrında Saranı oynamışdım axı. Məmnuniyyətlə razılaşdım. Bir də gördüm Mustafa hirslənib: "Hara gedirsən, sən Saranı oynaya bilərsən? Get, etiraz et!". Dedim: "Get, özün etiraz et, mən oynayacağam!". Özümdən arxayın idim. Nə isə getdik Suraxanıya. Tamaşanı oynadıq. Demək tamaşada belə bir səhnə var ki, artıq xəstə yatan Sara Əbdül əmiyə "Get, Bəhramı çağır" deyir. Əbdül də "Bəhram yoxdur" deyir. Sara da yalvararaq: "Bilirəm, sən məni aldadırsan" deyib ağlamağa başlayır. Mən bu sözləri deyəndə bir də gördüm ki, Mustafa səhnədə əməlli-başlı ağlayır. Tamaşaçılar da zalda ağlaşırlar. Elə ki, o səhnə bitdi, pərdənin arxasında Mustafa məni bərk-bərk qucaqlayıb öpdü: "Mən heç bilməzdim ki, sən Saranı bu cür gözəl oynaya bilərsən" dedi".

Ətayə xanımın həm də yaxşı yemək bişirmək qabiliyyəti olub. Oğlu Ramiz müəllimin dediyinə görə, badımcan dolmasını xüsusilə gözəl hazırlayırmış. Aktrisa özü həmişə deyərdi ki, gərək xörəyin başına fırlanasan, yoxsa dadı qaçar. Mütaliə etməyi sevən aktrisa Sədi Şirazinin "Gülüstanı Bustan"ını əlindən yerə qoymazdı. Eyni zamanda, müasir ədəbiyyata da marağı var idi.

Deyilənə görə, Ətayə xanım 3-cü övladının olmasını istəmirmiş, amma bir də xəbər tutub ki, hamilədir. Bətnindəki körpəni tələf etdirmək istəyib, amma qonşuluqda yaşayan bir qadın onu bu fikrindən daşındırıb və beləcə dünyaya xalq artisti, rejissor Ramiz Həsənoğlu gəlib. Həyatının son illərində aktrisa bir sıra sağlamlıq problemləri ilə qarşılaşıb. Öd kisəsi və qan təzyiqi ilə bağlı xroniki xəstəliklərdən əziyyət çəkib. Səhnədə son çıxışlarını məhz bu səbəbdən tədricən azaltsa da, heç vaxt sənətə olan marağını və sevgisini itirməyib. 74 yaşında vəfat edən aktrisa teatrın, səhnənin nisgiliylə gözlərini yumub.